# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN RƏHBƏRLİYİ İLƏ ÖLKƏNİN EKOLOJİ SİYASƏTİNİN FORMALAŞDIRILMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**Kamran İbrahimov**

*"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Bakı*
*azal@azal.az*

Bu gün fəxrlə deyə bilərik ki, Heydər Əliyevin adı çəkiləndə Azərbaycan, Azərbaycan deyəndə isə Ulu Öndər xatırlanır. Hər bir azərbaycanlı üçün tükənməz qürur mənbəyi olan bu dahi insan özü ürəkdolusu bir coşqu ilə deyir: "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam...". Ulu Öndər bu gün də aramızdadır, nə qədər Azərbaycan varsa, Heydər Əliyev də vardır, nə qədər Heydər Əliyev varsa, Azərbaycan vardır. Bu iki varlığı bir-birindən ayırmaq mümkün deyil. Heydər Əliyev hər bir azərbaycanlının qəlbindədir. Biz

xoşbəxtik ki, Tanrı bizə belə dahi şəxsiyyəti bəxş etmişdir. Xalqımız gündəlik həyatında, strateji amallarında Heydər Əliyev nəfəsini, hərarətini hiss etdikcə daha güclü, əzmkar, daha əyilməz və inamlı olur. Xüsusilə, dünyanın bu təlatümlü zamanında xalqımızın ədalətsizcəsinə təklənməsindən, hər tərəfdən müxtəlif hücumlara məruz qalmasından qorunmaq üçün Heydər Əliyev əzəmətindən ruhlanırıq. Ən çətin anlarda da, ən xoş günlərdə də öz mərhəmətli baxışları, fədakar qəlbi ilə Ulu Öndər həmişə Azərbaycanımızın yanındadır, başımızın üzərindədir. Ulu Öndər bizim xilaskarımız, onun ideyaları xilas yolumuzdur.

Heydər Əliyev elə böyük və həssas şəxsiyyətdir ki, Azərbaycanımızın heç bir xoşbəxt və firavan günlərini nəzərdən qaçırmazdı, Azərbaycanın memarı kimi müstəqilliyə xələl gətirən ən böyük sarsıntılardan tutmuş ən xırda həssas məqamlara qədər heç birinə biganə qalmazdı. Xalqımızın, dövlətimizin taleyi ilə bağlı ən ümdə məsələləri vaxtında qabardıb, uyğun tədbirlər görərdi.

Azərbaycan bu gün regionun lider ölkəsidir. Artıq bu həqiqəti dünyanın ən mötəbər qurumları da təsdiq edir. Sevindirici haldır ki, bu liderlik və sürətli inkişaf respublikamızın mülki aviasiya sahəsində də əks olunur. Son illər ərzində, digər sahələrdə olduğu kimi, mülki aviasiyamız da uğurla inkişaf edib. Bu inkişaf həm yeni aerovağzal komplekslərinin inşasında, həm də ən müasir hava gəmilərinin alınmasında özünü daha aydın büruzə verir.

Ölkəmizdə aviasiya sisteminin təməli XX əsrin əvvəllərinə təsadüf edir. Belə ki, ölkəmizdə ilk təyyarə uçuşları 1910-cu ildə Bakıda həyata keçirilib. 1938-ci il iyunun 2-də Mülki Hava Donanması Baş İdarəsinin əmri ilə Mülki Hava Donanmasının Azərbaycan aviasiya dəstəsi təşkil edilib və Bakı Hava Limanı müstəqil təsərrüfat vahidinə çevrilib. Həmin illərdə, həmçinin qanlı-qadalı Böyük Vətən müharibəsi dövründə bu sahənin mütəxəssisləri öz fəaliyyətləri ilə müəyyən nailiyyətlərə imza atıblar.

Müharibədən sonra respublikamızda hava nəqliyyatının dirçəliş dövrü başlanıb. Ötən əsrin 60-cı illərində isə ölkəmizin mülki aviasiyasında sürətli texniki keçidlə bağlı problemlər kifayət qədər müsbət həll olunub.

Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə ölkəmizin mülki aviasiyasının inkişafı sahəsində daha böyük uğurlar qazanılıb. Belə ki, 1976-1980-ci illər üçün Azərbaycanda mülki aviasiyanın inkişaf proqramı hazırlanıb, nəticədə təyyarə nəqliyyatın ən sürətli, komfortlu və əlverişli növünə çevrilib və həmin illərdə respublikanın 11 bölgəsində yeni hava limanları tikilib və ya mövcud hava limanları yenidən qurulub.

Mülki aviasiyanın ölkəmizin həyatındakı rolunu yüksək qiymətləndirən Ümummilli Liderin rəhbərliyi ilə müstəqillik dövründə bu sahədə daha geniş tədbirlər görülüb: "1998-2003-cü illər üçün Respublika Mülki Aviasiyasının inkişaf proqramı" hazırlanaraq, uğurla həyata keçirilib. Bu proqram çərçivəsində əldə olunan nailiyyətlərin ən bariz nümunəsi Bakı Hava Limanında dünya standartlarına tam cavab verən yeni aerovağzal kompleksinin tikintisi olub. 1999-cu il oktyabrın 2-də Ulu Öndərin iştirakı ilə yeni aerovağzal kompleksinin təntənəli açılışı keçirilib. Həmin mərasimdə Heydər Əliyev deyib: "Hava limanı Azərbaycanın qapısıdır. Onu gərək elə göstərək ki, Azərbaycana layiq olsun".

Heydər Əliyev respublikamızda ekoloji problemlərin davamlı inkişaf prinsipləri əsasında həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan Ulu Öndərin fəaliyyəti dövründə ölkədəki ekoloji vəziyyət həmişə xüsusi diqqət mərkəzində olub, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyən olunmuş prioritetlər üzrə tədbirlər görülüb. Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən, ekologiya sahəsində verdiyi tövsiyələr bu gün də rəhbər tutulmaqdadır.

Xalqımızın Ümummilli Lideri Abşeronun yaşıllıqlar diyarına çevrilməsi üçün bir çox tədbirlərin görülməsinə nail olub. Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə (1969-1982) yaşıllığın qədrini bilməyənlərə bu sözləri ilə izah etdi ki, "yaşıllıq olmayan yerdə həyat yoxdur. Hər kəs iki ağac əkib böyütməlidir". Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra müharibə şəraitində, ağır vəziyyətdə olsaq da, nəinki Bakı şəhərində, eləcə də, respublikamızın bütün bölgələrində yaşıllığa diqqət yenidən artırıldı. Planetin ağciyərləri olan meşələrin qorunması yenidən gündəmə gəldi. Yaşıllaşdırma paytaxt Bakıda və Abşeronda bundan sonra başladı.

Heydər Əliyevin rəhbərliyi dövründə, 1969-1982-ci illərdə ətraf mühit sahəsində 8 qanun qəbul olunub, Hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq edilib. 1993-cü ildə yenidən hakimiyyətə gəlmiş Ulu Öndər ekoloji məsələləri bir daha ön cərgəyə çəkdi və meşə, torpaq, su və s. haqqında bir sıra yeni qanunlar qəbul edildi. 1998-ci ildə təsdiq edilmiş "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş layihələrin həyata keçirilməsi nəticəsində respublikada müasir Təhlükəli Tullantılar poliqonu, Xıllı Nərə Balıqartırma zavodu inşa edildi.

Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş ekoloji qərarlar, qanunlar, sərəncamlar ölkəmizin təbiətinin sağlamlığına yönəlmişdir. Bu iş ardıcıl, müntəzəm və sistem halında görüldüyü üçün böyük səmərə vermişdir. Ulu Öndər deyirdi: "Mən 1993-cü ildə Bakıya gələrkən, bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən, elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız..."

2003-cü ildə Heydər Əliyev tərəfindən ekoloji siyasətin müasir strategiya sənədi olan "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram təsdiq edildi. Bu strateji proqram əsasında ətraf mühitin müxtəlif sahələri üzrə 4 milli və dövlət proqramları, Kompleks tədbirlər Planı təsdiq edilib və həyata keçirilir.

Dövlət Başçısı kimi Ümummilli Liderin ekoloji siyasətinin prioritet istiqamətlərindən biri də ölkədə mövcud olan su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, xüsusən də ölkənin su təchizatı, onun inkişafı və dirçəlişi olub. Ona görə də, bu istiqamətdə Ulu Öndər Heydər Əliyev tərəfindən bir çox tədbirlər həyata keçirilib. Bakıda yaşıllıq zonalarının salınması su təchizatında böyük irəliləyişlər nəticəsində mümkün olub. Ulu Öndər Heydər Əliyev respublikanın rəhbəri təyin olunduğu andan Abşeron yarımadasının su təchizatı istiqamətində müxtəlif tədbirlər həyata keçirildi. Ümummilli Liderin təşəbbüsü ilə Kür-Bakı su kəmərinin tikintisinə başlandı.

Ulu Öndərimizin müdrik siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev təbiətə dövlət qayğısını daim diqqət mərkəzində saxlayır. Təbiətin mühafizəsi ilə əlaqədar yeni şəraitə uyğun milli proqramlar hazırlanır.

Bu gün tam əminliklə demək olar ki, Azərbaycanda ekoloji problemlər dövlət səviyyəsində həll olunur. Son illər Bakı şəhərində və ətraf yaşayış massivlərində həyata keçirilən ekoloji tədbirlər, o cümlədən ağacəkmə aksiyaları birbaşa ətraf mühitin qorunmasına və yaşıllaşdırmaya xidmət edir. Azərbaycan Xəzəryanı dövlətlər arasında yeganə ölkədir ki, burada dənizin və onun akvatoriyasının çirklənmədən təmizlənməsi üzrə kompleks tədbirlər həyata keçirilir.

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti digər məsələlərdə olduğu kimi, ətraf mühitin mühafizəsi sahəsində də Ulu Öndər Heydər Əliyevin yürütdüyü uğurlu ekoloji siyasəti və onun müdrik kəlamlarını öz işində rəhbər tutaraq, ətraf mühiti qorumaqda və yaşıllıqları artırmaqda davam edir.